Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.
Heydər Əliyev.



GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 9-10 (9241-9242) | 7 iyun 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

# Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyi rayonumuzda böyük təntənə ilə qeyd olunmuşdur







**Yubiley tədbirinə şairin doğulduğu Yuxarı Salahlı kəndindən başlanılmışdır. Tədbir iştirakçıları əvvəlcə Səməd Vurğunun poeziya evinə gələrək böyük şairin abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini yad etmişlər.**

Sonra tədbir M.P.Vaqifin kənddəki abidəsi önündə davam etdirilmişdir. Şairin abidəsi önünə gül-çiçək dəstələri qoyan tədbir iştirakçıları şairin xatirəsini böyük ehtiramla anmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov yubiley tədbirini giriş sözü ilə açaraq qonaqları salamlamışdır. Sonra Respublika Prezidenti İlham Əliyevin 12 yanvar 2017-ci il tarixli sərəncamına əsasən mütəfəkkir şair M.P.Vaqifin yubiley tədbirlərinin keçirildiyini qeyd etmişdir. Bu yubileyin qazaxlılar üçün, bütün vaqifsevərlər üçün böyük poeziya bayramı olduğunu vurğulamışdır.

Tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal M.P.Vaqifin həyat və yaradıcılığından danışmışdır.

Sonra söz qonaqlara verilmişdir. Qazax Xeyriyyə Cəmiyyətinin sədri İlham Pirməmmədov, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Teymur Bünyadov, şair, yazıçı, kinodramaturq, Azərbaycan Yazıçılar Birliyinin Yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi çıxış edərək M.P.Vaqifin Azərbaycan ədəbiyyatındakı misilsiz xidmətlərindən, onun yaradıcılığının ədəbiyyatımıza bəxş etdiyi zənginliklərdən söz açmışlar.

M.P.Vaqif nəslinin davamçısı Vidadi Müftizadə çıxış edərək yüksək səviyyədə yubiley tədbirinin keçirilməsinə və Vaqif yaradıcılığına, poeziyasına verilən dəyərə görə Ölkə Başçısı İlham Əliyevə, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova ailəsi adından, Vaqif nəslinin nümayəndələri adından öz dərin minnətdarlığını bildirmişdir.

Daha sonra şairlər çıxış etmişdir. Bakıdan, Daşkəsəndən, Tovuzdan, Ağstafadan, Qazaxdan olan şairlərdən Ələddin İncəli, İsa Cavadoğlu, Mustafa Rasimoğlu, Saqif Qaratorpaq, Zaməddin Ziyadoğlu, Rəfail İncəyurd, Sahib İbrahimli, Ramiz Təmkin, Mübariz Qaragözoğlu, Bilal Qoca, Səhlədar Hidayətoğlu, Məzahir Yaqub, Tamella Poladlı, Zərəngiz Dəmirçi Qayalı, şair Dünyamalı şeirlərini oxumuşlar.

Yuxarı Salahlı kənd tam orta məktəbin şagirdləri və BDU Qazax filialının tələbələrinin ifasında şairin şeirlərindən parçalar oxunmuş və "Vaqif" pyesindən bir səhnə nümayiş olunmuşdur.

Aşıq Şahmurad Qazaxlının saz havasında M.P.Vaqifin "Durnalar" şeirini oxuması ilə yubiley tədbirinin Yuxarı Salahlı kəndində olan hissəsi başa çatmışdır.

Daha sonra M.P.Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş yubiley tədbiri rayon Gənclər Mərkəzində keçirilən elmi-praktik konfransla davam etdirilmişdir.

Konfrans iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək heykəli önünə gül dəstələri qoymuş əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Sonra konfrans böyük Azərbaycan şairi M.P.Vaqifin həyat və yaradıcılığından bəhs edən "M.P.Vaqif" adlı filmin nümayişi ilə öz işinə başlamışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov konfransı giriş sözü ilə açaraq qonaqları salamlamış və M.P.Vaqifin anadan olmasının 300 illik yubileyinin keçirilməsinin əsl bayram olduğunu bildirmişdir. Sonra şairin həyat və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, əsrlər gəlib keçsə də Vaqif poeziyası yaddan çıxmayacaqdır. Bunun bariz nümunəsidir ki, Prezident İlham Əliyev 12 yanvar 2017-ci il tarixdə böyük Azərbaycan şairi M.P.Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədilə sərəncam imzalamışdır. Bu Sərəncama əsasən Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi və AMEA ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla M.P.Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlanmışdır. Elə həmin tədbirlər planına əsasən də Qazax rayonunda böyük şair Molla Pənah Vaqifin 300 illik yubileyi qeyd edilir.

Çıxışının sonunda R.Babaşov fikrini ulu öndərin dahi şairimiz haqda söylədiyi kəlamı ilə yekunlaşdıraraq qeyd etmişdir ki, "Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm də qavraya bildi, həm də sevdi. Beləliklə, o, Azərbaycan şeirində yeni bir yol açdı".

*(Ardı səh.2-də)*



















# Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyi rayonumuzda böyük təntənə ilə qeyd olunmuşdur






*(Əvvəli səh.1-də)*

Sonra söz qonaqlara verilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının ədəbiyyat institutunun professoru İslam Qəribli, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Teymur Bünyadov, AYB-nin Qazax filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, tənqidçi, Azərbaycan Slavyan Universitetinin professoru Rüstəm Kamal, professor, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun "Müasir Azərbaycan dili" şöbəsinin müdiri İsmayıl Kazımov, dosent, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Aslan Salmanov, Qazax Xeyriyyə Cəmiyyətinin sədri İlham Pirməmmədov konfransda çıxış edərək M.P.Vaqif yaradıcılığından, şeirlərinin zənginliyindən, onun gözəllik şairi olmasından, Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən söz açmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov konfransa yekun vuraraq bir daha qonaqlara tədbirdə iştirak etdiklərinə və Vaqif yaradıcılığına verdikləri dəyərə görə vaqifsevərlər adından, bütün Qazax ictimaiyyəti adından öz minnətdarlığını bildirmişdir.

M.P.Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş yubiley tədbiri günün ikinci yarısında Olimpiya İdman Kompleksində təşkil olunan bayram konserti ilə davam etdirilmişdir.

Aparıcı Afaq Gəncəlinin Bakıdan dəvət olunmuş estrada və muğam ifaçılarını, yerli aşıq və müğənniləri səhnəyə dəvət etməsi böyük alqışlarla qarşılanmışdır.

Azərbaycanın xalq artisti Bilal Əliyevin, əməkdar artistlər İlkin Əhmədovun, Sabir Əliyevin, gənc müğənnilərdən Nigar Şabanovanın, Prezident təqaüdçüsü, tar ifaçısı Mustafa Aşurovun, aşıqlardan Camoy Qurbanovun, Yaşar Gülümcanovun, Saqif Məzəmlinin, Samir Cəlaloğlunun, Hüseyn Dərgahquluyevin, Həsən İncəlinin, Şahin Süleymanovun, Qoca Ərəbovun, "Səma" rəqs qrupunun ifalarında səslənən bir-birindən şəx, şux mahnılar, saz havaları, nümayiş olunan rəqslər əsl bayram əhval-ruhiyyəsi yaratmışdır.

**Elçin İSMAYIL**










## Faşizm üzərində Qələbənin 72-ci ildönümü qeyd edilmişdir

**Qazax rayon İcra Hakimiyyətində Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə toplantı keçirilmişdir. Toplantıda RİHB Aparatının məsul işçiləri, Böyük Vətən Müharibəsi veteranları, arxa cəbhə əmək veteranları, ağsaqqallar və KİV nümayəndələri iştirak etmişdir.**



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq Qələbə Günü münasibətilə veteranları və xalqımızı təbrik etmiş, Böyük Vətən Müharibəsi veteranlarına Ölkə Prezidenti İlham Əliyev tərəfindən dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışmışdır. Bildirmişdir ki, Böyük Vətən Müharibəsində Azərbaycandan 660 min nəfər iştirak etmiş. 130 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Bu müharibəyə Qazax rayonundan 12510 nəfər səfərbər edilmiş, onlardan 5500 nəfəri döyüş səngərlərində qəhrəmancasına həlak olmuş və 3200 nəfəri isə itkin düşmüşdür. Müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları vermişdir.

Toplantıda Böyük Vətən Müharibəsi iştirakçılarından Xanqulu Süleymanov, Nəbi Nəbiyev, Hümbət Alıyev və başqaları çıxış edərək onlara göstərilən köməyə, diqqətə və qayğıya görə Ölkə Prezidentinə və rayon rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər. Çıxış edənlər veteranlarımız tərəfindən gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində səmərəli işlərin aparıldığını diqqətə çatdırmışlar.

Sonra veteranlarla söhbət nahar süfrəsi arxasında davam etdirilmiş və xatirə şəkli çəkdirilmişdir.

**Nüşabə HÜSEYNOVA**

## Şərqin ilk demokratik dövləti




**Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 99 il ötür. 28 may 1918-ci ildə öz müstəqilliyini elan edən Azərbaycan dövləti mövcud olduğu 23 ay ərzində bir çox tarixi əhəmiyyətli işlər həyata keçirmişdir. Həmin gün Respublika Günü kimi hər il qeyd olunur. Respublikanın hər yerində olduğu kimi Qazax rayonunda da 28 may Respublika Günü ilə əlaqədar tədbir keçirilmişdir. Gənclər Mərkəzində keçirilən tədbirdə idarə, müəssisə və təşkilat rəhbərləri, ziyalılar, ağsaqqallar, gənclər və KİV nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül-çiçək dəstələri qoymuş. əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq geniş məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, Azərbaycan Demokratik Respublikası süquta uğrasa da 1918-ci ildə onun Azərbaycana əkdiyi müstəqillik toxumu XX əsrin son on illiyində yenidən cücərib üzə çıxdı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Beləliklə, XX əsrdə Azərbaycan ikinci dəfə siyasi müstəqillik əldə etdi. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayışından sonra respublikamızın müstəqilliyi məhv olmaq təhlükəsindən qurtuldu. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir, ən böyük sərvətimizdir. Ümummilli liderin sözləri ilə desək, "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir".

YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov, əməkdar müəllim, 1 saylı tam orta məktəbin tarix müəllimi Mustafa Mirzəyev, Bakı Dövlət Universiteti Qazax filialının baş müəllimi Mübariz Süleymanov, Qazax Dövlət Sosial İqtisadi Kollecin şöbə müdiri Elvira Əfəndiyeva Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, fəaliyyətindən, demokratik hüquq və azadlıqların bərqərar olmasından ətraflı söz açaraq öz arzu və istəklərini bildirmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq tədbir iştirakçılarını və Azərbaycan xalqını 28 may Respublika Günü münasibətilə bir daha səmimi qəlbdən təbrik etmiş, gələcək işlərində uğurlar arzulamışdır.

**Elçin İSMAYIL**

## Ulu öndər Heydər Əliyevin 94-cü ildönümü ilə əlaqədar rayonumuzda ağacəkmə kampaniyası keçirilmişdir



**Rayonumuzda Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ağac əkini kampaniyası keçirilmişdir. Ağacəkmə kampaniyasında rayon icra hakimiyyətinin rəhbərliyi, idarə və müəssisə kollektivləri, gənclər, ictimaiyyət nümayəndələri iştirak etmişlər.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov kampaniyada iştirak edərək ağac əkmişdir.

Ağaclar Bakı-Qazax magistral yolunun Qazax rayonu ərazisindən keçən hissəsinə əkilmişdir. Yolun kənarlarına 3750 ədəd şam, çinar, gilas, nar, qovaq ştilləri basdırılmışdır.

Həmçinin ərazidə təmizlik-abadlıq işləri aparılmış, sahə alaq otlarından, daşlardan təmizlənmiş, yeni əkilən ağaclar suvarılmış, əvvəllər basdırılan tinglərə isə aqrotexniki qulluq göstərilmişdir. İməcilikdə 1200 nəfərdən çox rayon sakini iştirak etmişdir.

## Qazaxıstan səfiri Qazax rayonunda olmuşdur

**Mayın 29-31 tarixlərində Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayevin rəhbərlik etdiyi nümayəndə heyəti Qazax rayonunda olmuşdur. Obeliskin önündə qonaqları rayon İcra Hakimiyyəti Başçısının müavinləri Tahir Musayev, Gulaya Həsənova və digər məsul işçilər qarşılamışdır.**

Sonra qonaqlar Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbovun xatirəsini əbədiləşdirən Təyyarə Abidə Kompleksində olmuş və igid təyyarəçi haqqında məlumat almışlar.

Ertəsi günü qonaqlar ulu öndər Heydər Əliyevin adını daşıyan parka gələrək ümummilli liderin abidəsini ziyarət edib heykəli önünə gül dəstələri qoymuşlar. Heydər Əliyev Mərkəzində olan qonaqlar dahi şəxsiyyətin həyat və yaradıcılığı ilə yaxından tanış olub, ümummilli liderin zəngin həyatını özündə əks etdirən filmə baxmışlar. Mərkəzdəki planetariumda nümayiş etdirilən film qonaqlar tərəfindən maraqla qarşılanmışdır.



Səfir B.İsabayev bildirmişdir ki, Qazaxa səfərimiz rayon ilə ilkin tanışlıq, onun haqqında ətraflı məlumat əldə etməkdir. Mənimlə birlikdə Qazaxa "Babalar ³z³men" (Əcdadların izi ilə) elmi ekspedisiyası gəlmişdir. Ekspedisiyaya Qazaxıstanın paytaxtı Astana şəhərindən gəlmiş alim və türkoloqlar, "Xabar24" dövlət telekanalın və "Avrasiya" kanalın əməkdaşları daxildir. Ekspedisiyanın rəhbəri coğrafiya elmləri doktoru Sapar İskakov isə bildirmişdir ki, onlar Qazaxıstanla Qazax rayonu arasında tarixi bağlılığı araşdırır, iki xalqı bir-birinə bağlayan qədim kökləri axtarırlar. Qeyd etmişdir ki, elmi ekspedisiyada mənimlə birlikdə Qazaxıstanın tanınmış elm xadimləri, tarix elmləri doktoru O.Mazbayev, J.Sabitov və başqaları iştirak edir.

Ekspedisiyanın üzvləri Qazaxın ən qədim və zəngin tarixə malik olan "Göyəzən" dağında, Damcılıda, Tarix-Diyarşünaslıq Muzeyində, Ədəbiyyat Muzeyində və Dədə Qorqud Abidə Kompleksində olmuş, yerli sakinlərlə, tarixçilərlə görüşmüş, fikir mübadilələri aparmışlar.

"Əcdadların izi ilə" elmi ekspedisiyanın üzvləri mayın 31-də Qazaxdan yola düşmüşlər.

**Elçin İSMAYIL**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir

**Qazax rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Qazax rayon Təşkilatının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfransda idarə, müəssisə, təşkilat rəhbərləri, gənclər, YAP fəalları, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.**



Tədbir iştirakçıları ulu öndərin adını daşıyan parka gələrək abidəsi önünə gül-çiçək dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Sonra iştirakçılar ümummilli liderin adını daşıyan mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə ətraflı tanış olmuş, kitab sərgisinə baxmışlar. Gənclər Mərkəzində keçirilən konfrans ulu öndər Heydər Əliyevə həsr olunmuş sənədli filmin nümayişi ilə başlamışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov konfransı giriş sözü ilə açaraq geniş məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, hər bir ölkəni, dövləti, milləti dünyaya tanıdan ilk növbədə onun siyasi xadimləri, tarixi şəxsiyyətləri olur. Onlar öz xalqının və millətinin layiqli təmsilçiləri kimi həm özlərinə, həm də öz xalqlarına tarixdə əbədi iz qoyur, doğma Vətənlərinin tarixini zənginləşdirməklə bərabər onun dünya arenasında tanınmasında və nüfuzunun yüksəlməsində misilsiz rol oynayırlar. Bu baxımdan Azərbaycan xalqının əbədiyaşar lideri Heydər Əliyevin gördüyü işləri heç bir dövlət rəhbərinin gördüyü işlərlə müqayisə etmək olmaz. R.Babaşov bildirmişdir ki, ulu öndər H.Əliyev Qazax rayonuna 3 dəfə səfər etmişdir. 1971, 1979 və 1998-ci illərdə Qazaxda rayon sakinləri və ziyalılar ilə görüşmüşdür. Dahi şəxsiyyət həmin görüşdə qazaxlıları yüksək qiymətləndirərək söyləmişdir: "Siz, əziz qazaxlılar! Burada həm öz torpağınızı, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız".

Ulu öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilməkdədir.

YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov, Bakı Dövlət Universiteti Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev, Qazax Dövlət Sosial İqtisadi Kollecinin baş müəllimi, YAP Qazax rayon təşkilatının şura üzvü Tərlan Bədəlova, Qazax bələdiyyəsinin sədr müavini, YAP Qazax rayon təşkilatı İdarə Heyətinin üzvü, YAP Gənclər Birliyi Qazax rayon təşkilatının sədri Vüsal İsmayılov, BDU Qazax filialının direktor müavini Məmməd Yusifov, baş müəllimi Mübariz Süleymanov, şəhər 4 saylı körpələr evi-uşaq bağçasının müdiri, YAP Qazax rayon təşkilatı Qadınlar şurasının sədri Asya Alhüseynova və şəhər sakini Nəzakət İsgəndərova, Statistika İdarəsinin məsləhətçisi, YAP Qazax rayon təşkilatı Kommuna kənd ərazi ilk partiya təşkilatının sədri Eltun Axundov müxtəlif mövzularda məruzələrlə çıxış etmişlər.

Konfransın sonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş şahmat üzrə rayon turnirinin və məktəblilər arasında inşa yazı müsabiqəsinin qaliblərinə Diplom və mükafatlar təqdim olunmuşdur.

**Elçin İSMAYIL**

**Azərbaycanın Qazax rayonu və Litvanın Trakay rayonu arasında əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Sənədi Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov və Trakay rayonunun meri Edita Rudeliene imzalamışlar. Sazişə əsasən hər iki tərəf mədəniyyət, idman, turizm, biznes, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığı genişləndirəcəklər.**

# Azərbaycanın Qazax rayonu ilə Litvanın Trakay rayonu arasında əməkdaşlıq Sazişi imzalanmışdır



Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə, Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamran Nəbizadə, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının icra katibi Tofiq Həsənov və Qazax rayon İcra Hakimiyyəti Başçısının şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Akif Vəliyev Litvanın Trakay rayon bələdiyyəsində olmuşlar.

Trakay rayon bələdiyyəsinin və şəhər sovetinin üzvləri ilə keçirilmiş görüşdə rayonun meri Edita Rudeliene çıxış edərək azərbaycanlı qonaqları Trakay rayon meriyasında gördüyündən məmnunluq ifadə etmişdir. O, iki il öncə Litva Bələdiyyələri Assosiasiyası ilə Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyası arasında başlanmış əməkdaşlığın nəticəsi olaraq, Trakay rayonu ilə Qazax rayonu arasında əməkdaşlıq haqqında Sazişin imzalandığını diqqətə çatdırmışdır. Mer bir il əvvəl Litva Bələdiyyələri Assosiasiyasının tərkibində Azərbaycana səfər etdiyini bildirərək, Azərbaycanın çox gözəl olduğunu və ölkəmizdən böyük təəssüratlarla qayıtdığını vurğulamışdır.

Qazax və Trakay rayonlarının qədim tarixə malik olduğunu qeyd edən Azərbaycanın Litvadakı səfiri Həsən Məmmədzadə iki şəhər arasında əlaqələrin inkişaf edəcəyinə əmin olduğunu söyləmiş və səfirlik tərəfindən bu əməkdaşlığın daha da dərinləşməsi üçün səylərin əsirgənməyəcəyini vurğulamışdır.



Litva Seymində Azərbaycan ilə parlamentlərarası əlaqələr üzrə qrupunun üzvü Yonas Liyesis Trakay rayonu ilə Qazax rayonu arasında əməkdaşlığın təməlinin qoyulduğunu qeyd etmiş və əməkdaşlığın bütün sahələr üzrə inkişaf etməsini arzulamışdır. Uzaq bir diyarın, Qazax rayonunun artıq Trakaya yaxın olduğunu vurğulayan deputat bu əlaqələr nəticəsində xalqlarımızın bir-birinin adət-ənənələri ilə yaxından tanış olmaları üçün imkanların yarandığını qeyd etmişdir.



Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Kamran Nəbizadə il ərzində aparılmış işlərin nəticəsi olaraq Trakay rayon bələdiyyəsinin binasında iki rayon arasında saziş imzalandığını demiş və regionlararası əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin daha inkişaf etməsində töhfə verəcəyinə əmin olduğunu vurğulamışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Sazişin imzalanmasını Azərbaycan ilə Litva arasında dostluq münasibətlərinin nəticəsi kimi dəyərləndirmişdir. O, Qazax rayonunun tarixi, mədəni həyatı barədə geniş məlumat verərək rayonun dahi şairlər və yazıçılar məkanı olduğunu söyləmişdir.

Sonda qonaqlar Trakay rayonunda fəaliyyət göstərən turizm obyektləri ilə yaxından tanış olmuşlar.

**"GÖYƏZƏN"**

# Əhalinin təhlükəsizliyi tam təmin olunmalıdır

## Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun sərhəd kəndlərində keçirdiyi görüşlərdə bu fikir səslənmişdir



Həmişə xalqın arasında olan, mövcud problemləri yerli sakinlərin öz dillərindən eşidib tədbirlər görən Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bu gün sərhəd kəndlərində olmuşdur. Quşçu Ayrım, Məzəm, Fərəhli, Alpoud və Abbasbəyli kəndlərində rayon hüquq-mühafizə orqanlarının, hərbçilərin, idarə, müəssisə, təşkilat rəhbərlərinin iştirakı ilə keçirilən görüşlərdə sakinlər rayon rəhbərini çox səmimi qarşılayaraq ona ən xoş arzularını bildirmişlər.



Qarşılıqlı işgüzar şəraitdə keçən görüşlərdə rayon İcra Hakinmiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək mövcud vəziyyətdən və qarşıda duran vəzifələrdən danışmışdır. Qeyd etmişdir ki, bu gün sərhəd kəndlərinə olduqca böyük diqqət və qayğı göstərilir. Yerli sakinlərin təhlükəsizliyi daim diqqət mərkəzindədir. Bunun üçün biz əlimizdən nə gəlirsə edirik və bu işlər gələcəkdə də yüksək səviyyədə davam etdiriləcəkdir. Təmas xəttində hər şey nəzarət altında olmalıdır. Elə etmək lazımdır ki, dinc sakinlər təhlükələrlə üzləşməsinlər. Bunun üçün lazım gələn bütün tədbirlər görülmüş və bu proses gələcəkdə də davam etdiriləcəkdir. Məzəm kəndində evlərin qarşısına istinad divarları çəkilmiş, Quşçu Ayrım kəndində evlərin pəncərələri hörülmüş, Fərəhlidə və digər sərhəd kəndlərində təhlükəsizlik tədbirləri həyata keçirilmişdir. Qeyd etmişdir ki, bu gün Azərbaycan ordusu dünyanın ən bacarıqlı və ən qabaqcıl ordularından birinə çevrilmişdir.



Quşçu Ayrım kənd sakinlərindən Lətif Dünyamalıyev, Nəsib İsmayılov, Rəsul Rüstəmov, Fərəhlidən Əsmər Məmmədova, Cavahir Kazımova, Etibar Vəliyev, Alpoud-Hüseynbəyli kəndlərindən Faiq Mərdanov, Fərrux Namazov, Məzəm kəndindən Süleyman Süleymanov, Tamella Süleymanova, Tükəzban Qasımova, Məmməd Əliyev və başqaları çıxış edərək Pespublika Prezidenti İlham Əliyevə və rayon rəhbərliyinə Quşçu Ayrım, Məzəm, Fərəhli, Alpoud və Abbasbəyli kəndlərində həyata keçirdiyi işlərə görə öz dərin minnətdarlıqlarını bildirmişlər.

**Elçin İSMAYIL**



# "Qazaxda üç gün"

**Öz təbii gözəllikləri ilə zəngin olan Qazax rayonu yaz fəslində daha da gözəl və füsunkar olur. Onun başı göylərə dəyən dağlarına, yamyaşıl yamaclarına, hayqıraraq axan çaylarına, insana lay-lay çalan bulaqlarına baxdıqca doymaq olmur. Bu gözəlliklər istər rayon sakinlərini, istərsə də Qazaxa gələn qonaqları öz qoynuna səsləyir.**

Rayonun füsunkar təbiəti, zəngin landşaftı rəssamı da, fotoqrafı da, şairi də, başqa peşə sahiblərini də onun gözəlliklərini çəkməyə, yazmağa, insana böyük bir zövq bəxş edən anlarını lentə köçürməyə çağırır. Bu çağırışa səs verən sənət adamları təbiətin füsunkarlığını özündə əks etdirən slaydlar, fotoşəkillər, etüdlər çəkib hazırlayırlar.



Qazax Dövlət Rəsm Qalereyasında təşkil olunan gənc rəssamların, fotoqrafların əl işlərindən ibarət sərgi kimi. Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə təşkil olunan "Qazaxda üç gün" adlı sərgidə 69 ədəd rəsm əsəri və foto nümayiş olunmuşdur. Rayonun təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin kollektivləri, tələbələr, orta məktəb şagirdləri və gənclər sərgidə iştirak etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sərgiyə baxmaq üçün qalereyaya gəlmişdir. O, burada Bakı şəhərindən gəlmiş gənc rəssamlar Akif Əmirov, Aynurə Mustafayeva və İradə Qədirova ilə görüşərək onlarla səmimi söhbət etmişdir. Ölkəmizdə, eləcə də rayonumuzda gənclərə, istedadı olan insanlara yaradıcılıqla məşğul olmaq üçün hər cür imkan və şəraitin yaradıldığını bildirmişdir. Qeyd etmişdir ki, Qazaxın təbiəti olduqca gözəl və zəngindir. Bu gözəllikləri fotoşəkillərin, fırçanın dili ilə insanlara çatdırmaq isə olduqca vacib və əhəmiyyətlidir. Bu isə istedad və məharət tələb edir.

Sonra R.Babaşov sərgi ilə tanış olmuşdur. Gənc rəssamların bir-birindən gözəl olan etüdləri maraqla qarşılanmışdır.

Gənc fotoqraflar isə Qazaxın müxtəlif yerlərində olaraq həm təbiət mənzərələrini, dağları, çayları, lalələrə bürünmüş çölləri, həm də kəndlərdə yaşayan zəhmət adamlarını, sərhəd kəndlərinin uşaqlarını lentə almışlar. Onların hazırladıqları şəkillər sərgiyə baxanlara xoş ovqat bəxş etmişdir.

Sonda rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov gənc istedadlara yeni-yeni yaradıcılıq uğurları arzulamışdır.

**Elçin İSMAYIL**

# "Narkomaniya, erkən nikah, dini radikalizm və onun fəsadları"

***Qazax rayon İcra Hakimiyyətinin və rayon Polis şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya, erkən nikah, dini radikalizm və onun fəsadları" mövzusunda tədbir keçirilmişdir. Gənclər Mərkəzində keçirilən tədbirdə təhsil, səhiyyə işçiləri, gənclər, tələbələr, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.***



Tədbirdə öncə narkomaniyanın törətdiyi bəlalardan bəhs edən maarifləndirici film nümayiş olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq gənclərin narkomaniya, erkən nikah, dini radikalizm və digər bu kimi zərərli meyillərdən uzaqlaşdırılması, bu sahədə qarşıda duran vəzifələr barədə danışmışdır. R.Babaşov çıxışı zamanı narkomaniyanın yayılmasına, dini radikalizm və erkən nikah hallarına qarşı hamılıqla mübarizə aparılmasının vacibliyini önə çəkmiş, bu işdə əmək kollektivlərinin, müəllimlərin, gənclərin, habelə valideynlərin üzərinə çox böyük vəzifə və məsuliyyətin düşdüyünü vurğulamışdır.

Qazax rayon Polis şöbəsinin rəisi Ədalət Əliyev narkomaniya, dini radikalizm və erkən nikahın mənfi cəhətləri haqqında geniş məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, davamlı olaraq keçirilən belə maarifləndirici tədbirlər gənclər arasında sağlam həyat tərzinin təbliği işini daha da yaxşılaşdırmaq, gənclərdə narkomanlığın fəsadları haqqında düzgün təsəvvürlər formalaşdırmaq, radikal dini təriqətlərə meyillərin artmasının qarşısını almaq, habelə erkən nikahın yaratdığı problemlər barədə gəncləri daha geniş məlumatlandırmaq məqsədi daşıyır.

Sonra çıxışlar olmuşdur. RİHB Aparatında şöbə müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı Məhəmməd Orucov, aparıcı məsləhətçi-psixoloq Kəmalə Cəfərova, doğum evinin baş həkimi Aynur Namazlı, rayonun baş narkoloqu Nahidə Osmanova çıxış edərək narkomaniya, dini radikalizm və erkən nikahın törətdiyi bəlalardan söz açmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq qeyd etmişdir ki, müşavirədə müzakirə olunan məsələlərə qarşı mübarizə bütün ictimaiyyətin vəzifəsidir.

## 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Dünyanın ən xoşbəxt uşaqları

**Dünyanın 189 dövləti - Uşaqları Beynəlxalq Müdafiəsi Gününü qeyd edir. Uşaqlara irqindən, rəngindən, mənşəyindən, maddi durumundan asılı olmayaraq bərabərlik və şəxsi rəyə hörmət hüququ verilir. Dünyada və respublikamızda olduğu kimi Qazaxda da 1 iyun - Uşaqları Beynəlxalq Müdafiəsi Günü qeyd edilmişdir.**



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov və Milli Məclisin deputatı Ülviyyə Ağayeva 1 iyun gününü uşaqlar arasında keçirmək üçün sübh tezdən rayonda fəaliyyət göstərən 1 və 5 saylı körpələr evi-uşaq bağçalarına baş çəkmişlər. Uşaqlar Rəcəb Babaşovu ən yaxın adamları kimi qarşılamışdır. Çünki Rəcəb Babaşov ilk dəfə deyil ki, uşaqlarla görüşürdü. Təyin olunduğu ilk gündən xalq arasında olan R.Babaşov uşaqlara daim diqqət və qayğı ilə yanaşır, bu sahənin inkişaf etməsi üçün əlindən gələni əsirgəmir. Bunun nəticəsidir ki, bu gün Qazaxda körpələr evi-uşaq bağçaları günün tələbləri səviyyəsində fəaliyyət göstərir.

Görüşlərdə iştirak edən R.Babaşov çıxış edərək 1 iyun - Uşaqları Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün balaları təbrik etmiş, onlara ən səmimi arzularını bildirmişdir. Qeyd etmişdir ki, "Uşaqlar bizim gələcəyimizdir" - deyən ulu öndər Heydər Əliyevin uşaqlara olan diqqət və qayğısı bu gün Respublika Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Respublikamızda saysız-hesabsız məktəb binaları, uşaq bağçaları tikilib uşaqların istifadəsinə verilir. Bunun nəticəsidir ki, Azərbaycan uşaqları bu gün dünyanının ən xoşbəxt uşaqlarıdır.



Milli Məclisin deputatı Ülviyyə Ağayeva öz çıxışında əlamətdar gün münasibətilə bütün körpələri təbrik edərək onlara xoşbəxt həyat, uğurlu gələcək arzulamışdır. Qeyd etmişdir ki, mən bu gün sizin aranızda özümü çox xoşbəxt hiss edirəm. Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir. Ona görə də bu gün azərbaycanlı uşaqlar çox xoşbəxt və firavan yaşayır, Vətənə, dövlətə, xalqa layiq vətəndaş kimi yetişirlər.

Bayram tədbirlərində valideynlər, baba və nənələr, müəllimlər, tərbiyəçilər söz alaraq Qazaxda böyüməkdə olan gənc nəslə göstərilən diqqət və qayğıya görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, bu gün rayondakı bütün körpələr evi-uşaq bağçalarında uşaqların sağlam və qayğısız böyümələri üçün hər cür şərait yaradılmışdır. Mübaliğəsiz olaraq deyə bilərik ki, paytaxtdakı bağçalarla Qazaxdakı bağçalar arasında heç bir fərq yoxdur. Son 1 ildə bağçalarda yaradılan şəffaflıq bu uşaq müəssisələrinin gündəlik fəaliyyətinə müsbət təsirini göstərmiş, bağçalar sözün əsl mənasında uşaqların təlim-tərbiyə müəssisəsinə çevrilmişdir.

Sonra uşaqlar söz almışlar. Körpə fidanlar Vətənə, xalqa, anaya, məktəbə, şəhidlərə aid şeirlər söyləmiş, mahnılar oxumuş, rəqs etmişlər. Onların çıxışları alqışlarla qarşılanmışdır. Sonda uşaqlara bayram süfrəsi açılmışdır. Tədbirlər xatirə şəkillərinin çəkilməsi ilə başa çatmışdır.

**Xuraman ƏZİMOVA**



# IV İslam Həmrəyliyi Oyunlarının qazaxlı qalibləri ilə görüş keçirilmişdir



**May ayının 12-dən 22-dək Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan birinci yeri tutaraq 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanmışlar.**

Əldə edilən qələbədə qazaxlı idmançıların da payı var. Oyunlarda rayonumuzu təmsil edən müxtəlif növlər üzrə yarışlarda həmyerlilərimiz uğurla çıxış edərək mükafata layiq yerlər tutmuşlar.

IV İslam Həmrəyliyi Oyunlarının qazaxlı qalibləri ilə görüş keçirilmişdir. Məhəmmədəli Qazaxlı adına güləş zalının qarşısında keçirilən görüşdə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatı Kamran Nəbizadə, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, "Avey" idman klubunun prezidenti Arzuman Abdulkərimov, rayon ictimaiyyətinin nümayəndələri, idmançılar iştirak etmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş ölkə idmançılarını, onların məşqçilərini və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələrini bu qələbə münasibətilə bir daha səmimi qəlbdən təbrik etmişdir. Qazanılan qələbədə qazaxlı idmançıların da əməyi var. Sərbəst güləşdə Mahir Əmiraslanovun qalib olması, Tural Əliyevin zorxana yarışlarında gümüş medal qazanması, ağır atletikada idmançımız Elnarə Abbasovanın üçüncü, Gülçin Əlizadənin isə dördüncü yer tutması bizi hədsiz dərəcədə sevindirdi. Bu, bütün qazaxlı idmançıların uğurudur.

Milli Məclisin Deputatı Kamran Nəbizadə çıxış edərək Azərbaycanın həm də bu gün idman ölkəsi kimi tanındığını qeyd etmişdir. Bildirmişdir ki, ölkə başçısı İlham Əliyevin, birinci vitse-prezident, Oyunların Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın bu sahədə əməyi olduqca böyükdür. Mən də IV İslam Həmrəyliyi Oyunlarında fərqlənən qazaxlı idmançıları təbrik edir, onlara ən xoş arzularımı çatdırıram

Sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov görüşdə çıxışı zamanı bildirmişdir ki, IV İslam Həmrəyliyi Oyunları Azərbaycanda aparılan düşünülmüş siyasətin, o cümlədən idman sahəsindəki siyasətin bəhrəsini verdiyini bir daha nümayiş etdirdi. Biz qazanılmış nailiyyətlərlə kifayətlənməməli, dünya arenalarında daha böyük qələbələr əldə etməliyik.

Qalib idmançılar adından çıxış edən Tural Əliyev idmana və idmançılara göstərilən diqqət və qayğıya görə Respublika Prezidenti İlham Əliyevə, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova bütün idmansevərlər adından öz dərin minnətdarlığını bildirmişdir.



Respublikanın əməkdar məşqçsi Ramiz Tağıyev, Prezidentin Fərdi Təqaüdçüsü Kamal Əhmədov, məşqçi-müəllim Rayət Abdalov, publisist Səbinə Yusif qalib idmançılarla fəxr etdiklərini söyləmişlər.

Tədbirin sonunda rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov qalib idmançılara Fəxri Fərman və qiymətli hədiyyələr təqdim etmişdir.

**Elçin İSMAYIL**









# "Bura Qazaxdır, oğlum"




**Eldar Nəsiblinin Sibirelin anadan olmasının 65-ci ildönümündə şairin yenicə çapdan çıxmış "Seçilmiş əsərlər"inin təqdimat mərasimi olmuşdur.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Ədəbiyyat Muzeyində keçirilən mərasimi giriş sözü ilə açaraq bildirmişdir ki, E.Sibirelin "Seçilmiş əsərlər"inə onun müxtəlif illərdə yazılmış şeirləri daxil edilmişdir. Dünyadan vaxtsız getməsinə baxmayaraq o, təkcə "Bura Qazaxdır, oğlum" şeiri ilə ürəklərdə yaşayır.

Sonra tədbirin aparıcısı, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Filialın ədəbi məsləhətçisi Mustafa Rasimoğlu E.Sibirelin həyat və fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat vermiş, ona həsr etdiyi şeiri oxumuşdur.

Şairlərdən Ələddin İncəli, Rəfael İncəyurd, Cavanşir Rüstəm, Saqif Qaratorpaq, publisist Səbinə Yusif E.Sibirelin yaradıcılığından söz açmış, şeirlərini oxumuşlar. Belə yüksək səviyyədə tədbir keçirildiyinə və Qazaxda söz adamlarına yüksək dəyər verdiyinə görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova, "Seçilmiş əsərlər" kitabının nəşrinə köməklik göstərdiyinə görə Milli Məclisin deputatı Kamran Nəbizadəyə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Respublikanın əməkdar məşqçisi Ramiz Tağıyev, əməkdar jurnalist Sərhəd Məmmədov şairlə olan dostluqlarından, tələbəlik illərindən söz açmışlar.

E.Sibirelin "Bura Qazaxdır, oğlum" şeirinə mahnı bəstələmiş Vahid Qurbanov mahnının necə ərsəyə gəlməsindən danışmışdır.



Aşıqlardan Saqif Məzəmli, Samir Cəlaloğlu, İlqar Qələmçəli qədim saz havaları üstündə şairin şeirlərini ifa etmişlər.

Milli Məclisin deputatı Kamran Nəbizadə çıxış edərək E.Sibirel haqqında öz ürək sözlərini bildirmişdir. Qeyd etmişdir ki, "Seçilmiş əsərlər" oxucuların stolüstü kitabı olacaqdır.

E.Sibirelin nəvəsi Leylanın ifa etdiyi babasının "Görünür" şeiri alqışlarla qarşılanmışdır.

Sonda şairin qardaşı, "Ocaq" qəzetinin baş redaktoru, şair Vəli Xramçaylı E.Sibirelə göstərilən diqqət və qayğıya, belə yüksək səviyyədə tədbir təşkil etdiyinə görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova, Milli Məclisin deputatı Kamran Nəbizadəyə E.Sibirelin ailəsi və öz adından dərin minnətdarlığını bildirmişdir.

**Xuraman ƏZİMOVA**

# "Qazax inkişaf etdikcə biz qürurlanırıq"

## Deputat Ülviyyə Ağayevanın rayonumuzda seçicilərlə görüşündə bu fikir səslənmişdir

**Milli Məclisin deputatı Ülviyyə Ağayeva Qazax rayonunda seçicilərlə görüşmüşdür. Görüşə məcburi köçkünlərin məskunlaşdığı "Göy bina" adlanan yaşayış massivindən başlamışdır. Burada yaşayan məcburi köçkünlərin yaşayış şəraiti ilə yaxından tanış olmuş, onları dinləmişdir.**

Bağanıs Ayrım kəndindən olan məcburi köçkünlərdən Xanım Poladova, Mədinə Daşdəmirova, Bəhlul Poladov, Müşkünaz Aslanova, Yaşar Əsgərov, Qəndab Hüseynova, Cavanşir Əliyev, Saleh Xasayev, Gülnarə Mansurova görüşdə çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov onlara çox isti münasibət bəsləyir, qaldırdıqları məsələləri yerindəcə həll edərək qayğısını əsirgəmir. Özü tez-tez bizim yanımıza gəlib maraqlandığı üçün biz əvvəlki illərdə olduğu kimi daha qəbula getmirik.



Çünki cənab başçı daima bizim yanımızda olur.

Sonra Ülviyyə Ağayeva rayonun ən böyük kəndlərindən olan Çaylı kəndinə gəlmişdir. Burada da görüş çox səmimi və işgüzar şəraitdə keçmişdir. Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova görüşü giriş sözü ilə açaraq Ülviyyə Ağayevanın gördüyü işlərdən danışmışdır.

Sonra deputatın özü çıxış edərək seçicilərə öz fəaliyyəti haqqında məlumat vermişdir. Sakinlərdən Göycə Göyüşov, Camoy Qurbanov, Məlahət Abdullayeva, Qəzənfər Qocayev, İbrahim Qapaqov və başqaları söz alaraq son bir ildə Qazax şəhərində, eləcə də yaşadıqları Çaylı kəndində həyata keçirilən tikinti-quruculuq işlərindən söz açmışlar. Qeyd etmişlər ki, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun diqqət və qayğısı sayəsində kənddəki 2 saylı tam orta məktəb əsaslı şəkildə təmir olunmuş, artezian quyuları qazılmış, kəndə asfalt yol çəkilir və bu iş başa çatmaq üzrədir.

Daha sonra Kommuna kəndində görüş keçirilmişdir. Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənovanın giriş sözündən sonra Ülviyyə Ağayeva çıxış edərək gördüyü işlər barədə danışmışdır.

Seçicilərdən Sirac Nuriyev, Əminə Mirzəliyeva, Hafizə Qurbanova və başqaları çıxış edərək rayonda aparılan tikinti-quruculuq və abadlıq işlərinə görə rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, Qazax inkişaf etdikcə biz qürurlanırıq.

# "Şuşalı şəhid" sənədli filminin təqdimat mərasimi

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə 2012-ci ildən etibarən "Yaddaş" studiyasında "Azərbaycanın Milli Qəhrəmanları" silsilə sənədli filmlərinin istehsalına başlanılmış və bu silsilədən 70-dən çox film çəkilmişdir.**

Ərsəyə gələn növbəti sənədli film isə Şuşa şəhərinin işğalının 25-ci ildönümü ilə əlaqədar çəkilmiş Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərova həsr edilmiş "Şuşalı şəhid" sənədli filmidir.

Filmin təqdimatı keçirilən Mədəniyyət Mərkəzində ssenari müəllifi və rejisoru Kəmalə Musazadə çıxış edərək qeyd etmişdir ki, belə filmlərin çəkilməsində məqsəd gənc nəslə vətənpərvərlik hissini aşılamaq və Milli Qəhrəmanlarımızı, şəhidlərimizi yaddan çıxarmamaqdır.

Qazax RİHB Aparatının aparıcı məsləhətçi-psixoloqu Kəmalə Cəfərova çıxış edərək müəllifə qazaxlılar adından minnətdarlığını bildirmişdir.

Filmdə Milli Qəhrəmanın keçdiyi şərəfli döyüş yoluna nəzər salınmış, yaxınları, doğmaları, döyüş yoldaşları və dostlarının şəhid haqqında fikirləri toplanmışdır.

**Nüşabə HÜSEYNOVA**

# Vaqif müasir Azərbaycan poeziyasının banisidir

**1937-ci il. Günəşin öz zərrin şəfəqlərini torpağa səpələdiyi gözəl bir yay günü. Belə günlərdən birində S.Vurğun və bir qrup söz-sənət adamı ölməz sənətkarın qəbrini ziyarətə gedirlər. Baxımsızlıqdan Vaqifin qəbrinin pis vəziyyətdə olduğunu görən S.Vurğun Vaqifin məzarı üstündən bir ovuc torpaq götürür və deyir:**

"Vaqif, səni dirildəcəm". Həmin vaxt yoldaşlardan heç kəs bu ifadənin altında hansı mənanın gizləndiyini başa düşmür. Hadisədən üç həftə keçir. Vurğun yazar dostlarını çağırıb "Vaqif" dramını ilk dəfə onlar üçün oxuyur. Beləliklə, XX əsrdə vətənpərvərlik, azərbaycançılıq mövzusunda yazılmış gözəl bir əsər - "Vaqif" dramı yaranır. Elə həmin gün Vaqif yenidən dünyaya gəlir, yaşayır və nəsillər keçdikcə də yaşayacaqdır.

Ümummilli lider H.Əliyev də Vaqif yaradıcılığına, poeziyasına xüsusi diqqət yetirmiş, onun bədii irsinin araşdırılması üçün əlindən gələni əsirgəməmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər H.Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində əzəmətli məqbərənin açılışı olmuşdur. H.Əliyevin Vaqif yaradıcılığına göstərdiyi diqqət və qayğının davamı olaraq 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaqifin 300 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam vermişdir. Bu sərəncam dahi mütəfəkkir, ictimai xadim, ölməz sənətkar M.P.Vaqif yaradıcılığına verilən ən böyük qiymət, ən böyük dəyərdir.

Tarixin keşməkeşli yollarından, əsrlərin, qərinələrin sınağından alnıaçıq, üzüağ çıxan Odlar yurdu Azərbaycanımın başı çox bəlalar çəkmiş, yadellilərin işğalına, hücumlarına məruz qalmış və bu gün də qalmaqdadır. Bu hücumlar poeziyamıza, ədəbiyyatımıza da təsirsiz ötüşməmişdir. Zaman-zaman söz sənətkarlarımız ərəb, fars dillərində yazıb-yaratmağa məhkum edilmişlər. Hər hecasından, hər kəlməsindən, bal süzülən, hər səslənişində "Azərbaycan" duyulan doğma dilim yadlaşdırılmış, buxovlanmışdır.

XVIII əsrdə dilimizə qoyulan qadağalar nisbətən yumşalsa da tamamilə yox olmamış, məhv edilməmişdir. Vaqif öz poeziyası ilə bu buxovları, zəncirləri, vurub dağıtmış, Azərbaycan oxucusuna öz dilində gözəl şeir çələngi bəxş etmişdir. Ona görə də bugünkü poeziyanın, şeiriyyətin dilini çox vaxt Vaqif dili adlandırırlar.

Vaqif Azərbaycan ədəbiyyatında realizmin əsasını qoymuş, xalq şerini yazılı ədəbiyyata gətirmiş, heca vəznində gözəl, ahəngdar şeirlər yaratmışdır. Azərbaycan ədəbiyyatının inkişaf tarixinə baxsaq poeziyanın beşiyi başında Vaqifi görərik. Rəssam öz çəkdiyi sənət əsərini ərsəyə gətirmək üçün rənglərdən istifadə edir. Rənglər nə qədər düzgün və yerində işlədilərsə, sənət əsəri də bir o qədər qiymətli olar. Vaqif isə şeiriyyətin, poeziyanın rəssamıdır. O, sözlərdən məharətlə istifadə edərək Azərbaycan gözəlinin bəşəri xüsusiyyətləri ilə yanaşı milli xüsusiyyətlərini də qabartmış, sanki naturadan gözəl sənət əsəri yaratmışdır. Vaqifin yaratdığı gözəl sözlərin sehrindən, çalarından, naxışından yaranmış ilahi varlıq, bir mələk misalıdır.

Vaqif yüksək zövq, incə hisslər, nikbin duyğular şairidir. Vaqif yaradıcılığı ilə Azərbaycan poeziyasında yeni bir səhifə açılır - Vaqif səhifəsi. İstər gözəllik mövzusunda yazdığı əsərləri, istərsə də ictimai məzmunlu şeirləri bütün dövrlərdə öz aktuallığını saxlayır. Yarandığı gündən bu günə qədər öz təravətini, öz orijinallığını qoruyub saxlayan Vaqif lirikası gənc yazarlar, dilimizin saflığı və ədəbiyyatımızın əbədiyaşarlığının keşiyində dayanan Azərbaycan dili və ədəbiyyat müəllimləri üçün təkrarolunmaz mənbə, əvəzsiz məktəbdir.

**Mehriban ƏLİYEVA,**
**Daş Salahlı kənd 1 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi**

## İTMİŞDİR

**İsmayılov Tural Dilbazi oğlunun adına verilmiş hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.**

**Orucov Azər Nəriman oğlunun adına verilmiş hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.**

**Rzayev Asif Həsən oğluna məxsus olan "Zabitin şəxsi vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.**

**Məmmədova Telli Namaz qızının adına verilmiş JN - 166 saylı torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

***M.P.Vaqif və onun poeziyası Azərbaycan xalqının, el-elat mühitinin söz sənətimizə nadir hallarda bəxş etdiyi qiymətli sərvətimiz, nadir sənət incimizdir. Elə bir inci ki, 300 ildir ədəbiyyatımız bütövlükdə o parlaqlığın, o ziyanın, o nurun təsiri altındadır, zamanlar ötəcək, bu parlaqlıq daha da cilalanacaq, şeirimizin hər sətrinə, poeziyamızın nəfəsinə hopacaq.***

# Molla Pənah Vaqif ədəbi məktəbi

300 il ötsə də Vaqif ədəbi məktəbinin varislik prinsipi poeziyamızın nüvəsindən qızıl xətlə keçir. Vaqif yeni dövr intibahının övladı kimi meydana çıxsa da onun qələmi Şah Xətayidən mayalıdı. Canlı danışıq dilimizin bütün əzəməti, bütün səmimiyyəti Vaqifin əli ilə, Vaqifin dili ilə poeziyamıza qədəm qoysa da Xətayinin divan ədəbiyyatına heca vəznini gətirməsi ilə əruzun hakimiyyətinin laxlaması və onun sarayında söz gülüstanının bağbanı Qurbani tək sözdən fırçalı mahir bir rəssamın bağladığı söz çələnginin yeni dövr intibahının baş verməsində rolu və əhəmiyyəti danılmazdır.

Vaqifin dili sadə, özü nikbindir. Bu nikbinlik, bu sadəlik onun yaşam tərzi ilə bağlıdır deyənlər, yəqin ki, Vaqifin, ən azı, şəxsi həyatında baş verən faciədən-övladlarının ögey ana əlində böyüməsindən, bütövlükdə həyat və fəaliyyətinin digər sahələrindəki ziddiyyətlərdən yan keçə bilməzlər.

"Toy-bayramdır bu dünyanın əzabı" - deyə kədərə gülə-gülə sarılan Vaqifin gözəldən və gözəllikdən ilhamlanan, gerçəkliklərdən qaynaqlanan poeziyası, poetik sənətkarlığı, ideya, bədii xüsusiyyətləri ilə bu gün də ədəbiyyatımızın parlaq səhifəsi, hər zaman aktuallığını qoruyan canlı salnaməmizdir - Qarabağ salnaməmiz. Vaqifin həyatı və fəaliyyəti bu gün yad torpağında inləyən yaralı Qarabağımızın ayrılmaz tərkib hissəsi kimi öyrənilməli və tədqiq olunmalıdır. Biz ədəbiyyat müəllimləri, eləcə də Vaqifi öyrənənlər onun realizminin mənimsənilməsinə məhz bu prizmadan yanaşmalıyıq.

Ömrünün çox, həm də mənalı hissəsini Qarabağda keçirən Vaqifin ruhunda, Vaqifin dilində, hər sətrində Odlar yurdunun iki müqəddəs yurd yerinin özəl məziyyəti, səciyyəvi cəhəti birləşmişdir. Saz-söz məbədi Qazaxın, musiqi beşiyimiz Qarabağın. Bəlkə ona görə bu qədər ucalıqda, əlçatmaz zirvədədir Vaqif. Bəlkə ona görə Azərbaycan dilini Vaqif dili kimi xarakterizə edirlər.

Vaqif sözün əsl mənasında mahir rəssamdır. Sözlə, sözün özünün təbii boyasından istifadə ilə elə rəsm çəkir ki, naşı rəssam əlindən belə naşı iş çıxmaz. Vaqif, sözün əsl mənasında, böyük bəstəkardır. Gözəllik nəğməkarının hər sətri, hər bəndi musiqinin dili ilə danışır, bir az musiqi duyumu olan kəs zümzümə ilə nəğmə donu biçə bilir Vaqif sözünə.

Öz evi bərbad olan, əlyazmaları yandırılan, itə-bata bişən Vaqifin sözü elə təsirli, elə şirin, elə qulağa, ürəyə yatımlıdır ki, hafizədə, dildə, eldə yaşadı, yazılı ədəbiyyatın böyük klassikinin 300 yaşlı söz sənəti şifahi yazıya alındı. Bu gün də Vaqif yaradıcılığı, Vaqif ədəbi məktəbi sadəliyi, nikbinliyi, həyatiliyi, gözəlliyi ilə müasir poeziyamızı istiqamətləndirir. Ulu Qazaxın bütün cahana bəxş etdiyi böyük Vurğunun diliylə şeirimizdəki azərbaycançılığın zəmini Vaqifdən nişanədir.

**İlhamə QURBANOVA,**
**Daş Salahlı kənd 1 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi**

# Redaksiyamıza minnətdarlıq məktubu gəlib

Çox hörmətli cənab Rəcəb Babaşov! Sizin tapşırığınıza əsasən rayonumuzda Molla Vəli Vidadinin doğum günü çox yüksək səviyyədə keçirildi. Bu, bizim üçün unudulmazdır. Onunla yanaşı olaraq Mehdi Hüseynin, Səməd Vurğunun və İsmayıl Şıxlının ad günlərinin keçirilməsi lap ürəyimizdən oldu. Yubiley tədbirlərində sizin şəxsən özünüzün iştirak etməyiniz yubiley tədbirlərinin əhəmiyyətini daha da artırdı.

Prezident İlham Əliyevin sərəncamına əsasən Molla Pənah Vaqifin 300 illik yubileyi rayonumuzda yüksən şəkildə keçirildi. Sizə minnətdarıq ki, şairlər diyarı olan Qazaxda şeirə, saza, sözə diqqət və hörmətlə dəyər verirsiniz. Bu da biz qazaxlılar tərəfindən alqışlarla qarşılanır. Nə yaxşı ki, Siz Qazaxda varsınız. Sizin nəinki bu sahədə, rayonumuz üçün gördüyünüz işləri saysaq da saya gələn deyil. Eyni zamanda, Sizin bu gün biz insanları öz doğmanız kimi dinləməyiniz, yerindəcə əlinizdən gələn qayğı və kömək göstərməyiniz bizdə Sizə qarşı böyük doğmalıq yaradıb.

Mən şəxsən öz adımdan, başda atamın və bütün qohumlarımın, kollektivimiz adından Sizə dərin minnətdarlığımı bildirirəm. Xüsusən də çalışdığım 22 illik kollektivimin xahişini nəzərə alıb mənə etdiyiniz köməkliyə görə bir daha minnətdaram.

Allahdan Sizə uzun ömür və cansağlığı arzu edirəm. Tanrı Sizi qorusun və pənahında saxlasın.

**Ülviyyə PƏRVANƏYEVA,**
**M.P.Vaqif və M.V.Vidadi xatirə muzeyinin zal baxıcısı**

## Oxucu məktubu

# İdmançılarımızla fəxr edirəm



Mən bu yaşıma qədər bir çox tədbirlərin, kütləvi idman yarışlarının iştirakçısı olmuşam. Bu sahəyə marağım çox olduğundan ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarını izləmək üçün Gənclər və İdman Naziri Azad Rəhimov mənim iştirakımı təmin etdi. 12-22 may tarixlərində mən həmin oyunları əvvəldən axıra kimi çox böyük həvəslə izlədim. Azərbaycanın ev sahibi olduğu İslam Həmrəyliyi Oyunlarında qazanılan medallardan 162-si bizim idmançıların payına düşdü. Yığmamız 75 qızıl, 50 gümüş və 37 bürünc medal qazandı.

İdmançılarımızın bu qələbəsi bütün Azərbaycan xalqının qələbəsidir. Mən idmançılarımızla fəxr edirəm. Məni ən çox sevindirən isə həmyerlilərimiz Mahir Əmiraslanovun qızıl, Tural Əliyevin gümüş, Elnarə Abbasovanın bürünc medal qazanmasıdır. Hər yarışda olduğu kimi bu dəfə də Qazax idmançıları öz sözünü deməyi bacardı. Bu mənim üçün ikiqat bayramdır.

Danılmaz faktdır ki, idmançılarımız uğurları cənab Prezident İlham Əliyevin Azərbaycan idmanına göstərdiyi diqqət və qayğı sayəsində əldə etmişdir.

Mən bu möhtəşəm tədbirdə iştirak etdiyim üçün Ölkə Prezidenti İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm.

**Cəfər HƏSƏNOV,**
**Qarabağ müharibəsi veteranı**

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 1585

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.